# "Qırx dörd günlük müharibə Azərbaycanın gücünü, Silahlı Qüvvələrimizin rəşadətini, qəhrəmanlığını, xalqımızın birliyini göstərdi"

***Prezident İlham Əliyevin mayın 28-də Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə Vətən müharibəsindən əvvəlki illərdə Azərbaycanın haqq mübarizəsində qalib gələcəyinə, tarixi ədaləti bərpa edəcəyinə, nəyin bahasına olursa-olsun, tarixi torpaqlarımızın düşməndən təmizlənəcəyinə inandığını diqqətə çatdırıb. Ölkə rəhbəri bu əminliyin sülh yolu ilə gerçəkləşməsinə çalışıldığını da vurğulayıb: "Ancaq Azərbaycan vətəndaşları yaxşı bilirlər ki, sülh danışıqları, sadəcə olaraq, status-kvonun əbədi olmasına istiqamətləndirilmişdi. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan vasitəçilər 30 ilə yaxın davam edən danışıqlar müddətində aqressora – işğalçıya təzyiq göstərmədilər, onları məcbur etmədilər, onlara sanksiyalar tətbiq etmədilər. Açıq-aydın demədilər ki, işğalçı qüvvələr Azərbaycan torpağından çıxmalıdır. Aqressor təbii olaraq, daha da azğınlaşırdı, daha da qudururdu və bu torpaqları əbədi işğal altında saxlamaq istəyirdi və bu, sirr deyil".***



***Biz bir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr endirdik, düşməni torpağımızdan qovduq. Qırx dörd günün hər bir günü qəhrəmanlıq dastanıdır, hər bir günü bizim üçün əzizdir, doğmadır. Çünki hər gün biz irəli gedirdik, hər gün. Bir gün də geri addım atmamışıq. Düşmən müharibənin son mərhələsində panikaya, isterikaya qapılaraq öz məğlubiyyətini artıq dərk etməyə başlamışdı. Bir daha gördü ki, Azərbaycan qarşısında onlar duruş gətirə bilməyəcəklər.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Bütün bunlara baxmayaraq, sülh yolu ilə Azərbaycan işğaldakı torpaqların azad edilməsinə nail ola bilmədi. Çünki Ermənistan rəhbərliyi açıq-aydın ərazilərimizin bizə qaytarılmasının mümkünsüzlüyünü bildirirdi. Belə olan halda isə faktiki olaraq danışıqlar prosesinə son qoymaqdan başqa yol qalmırdı.

Yeri gəlmişkən, burada bir məqamı da xatırlatmaq istərdik. Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxladığı uzun illər ərzində bu ərazilərdəki yaşayış məntəqələrini dağıtmaqla, təbii sərvətləri talan etməklə bərabər, həm də Şuşa, Qubadlı, Laçın və digər yerlərdə qanunsuz məskunlaşma aparırdı. Beynəlxalq təşkilatlar, nüfuzlu dövlətlər tərəfindən isə bütün bu azğın hərəkətlər, vandalizm, barbarlıq əməlləri susqunluqla qarşılanırdı, biganə münasibət bəslənilirdi. Əslində isə belə olmamalı idi. Bu cür beynəlxalq cinayətə, Cenevrə konvensiyalarına zidd vəhşiliyə, torpaqlarımızın erməniləşdirilməsi cəhdinə layiqli cavab verilməli, təcavüzkara öz yeri göstərilməli idi. Amma heç bir tədbir görülmürdü…

Bu cür ədalətsiz yanaşmanın nəticəsində Vətən müharibəsi ərəfəsində Ermənistan–Azərbaycan arasında qarşıdurma daha da güclənmişdi, işğalçı tərəfindən ardıcıl şəkildə təxribatlar törədilməyə başlanmışdı. Əlbəttə, burada Ermənistanın yeni hakimiyyəti, Paşinyan rejimi müstəsna rol oynayırdı. "Soros çevrilişi" nəticəsində hakimiyyətə gələn Paşinyan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində sağlam düşüncə və xoş məram nümayiş etdirmək əvəzinə, məkrli siyasət yürütməyə, eskalasiyası prosesinin, necə deyərlər, canlandırılmasına üstünlük verirdi. O, işğal edilmiş ərazilərə tez-tez səfər edərək, "Qarabağ Ermənistandır və nöqtə" şüarını səsləndirirdi. Ermənistanın müdafiə naziri isə "ərazilər müqabilində sülh" formulundan imtina etdiyini vurğulayır və "yeni ərazilər uğrunda yeni müharibə" məzmunlu yeni hərbi konsepsiya irəli sürürdü.

Nikol Paşinyan növbəti çirkin əməlini isə ötən il sentyabrın 27-də reallaşdırdı, ölkəmizə qarşı təxribat törətdi, Azərbaycanın hərbi obyektləri və mülki əhalisini hədəfə aldı. Bu isə Vətən müharibəsinin başlamasına gətirib çıxardı.

İşğalçı Ermənistan İkinci Qarabağ müharibəsinin getdiyi 44 gün ərzində istər cəbhə xəttində, istərsə də müharibə bölgəsindən uzaq ərazilərdə yerləşən yaşayış məntəqələrimizə qarşı ardıcıl təxribatlar törətməkdən, dinc sakinləri atəş altında saxlamaqdan və beləliklə, müharibə cinayətlərini davam etdirməkdən belə çəkinmədi. Düşmən savaşdan kənar rayonlarımızı mütəmadi olaraq intensiv raket və ağır artilleriya atəşinə tutdu, nəticədə çox sayda mülki əhali həyatını itirdi. Bütün bunlar isə düşmənin faşist xislətindən xəbər verməklə bərabər, onun beynəlxalq hüququn norma və prinsiplərinə saymazlığını göstərdi, sülh və insanlıq əleyhinə yönələn təcavüzkarlığını, müharibə və terror prinsiplərinə sadiqliyini təsdiqlədi.

Dövlətimizin başçısı Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə qırx dörd günlük müharibənin Azərbaycanın gücünü, Silahlı Qüvvələrimizin rəşadətini, qəhrəmanlığını, xalqımızın birliyini göstərdiyini diqqətə çatdırıb: "Biz bir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr endirdik, düşməni torpağımızdan qovduq. Qırx dörd günün hər bir günü qəhrəmanlıq dastanıdır, hər bir günü bizim üçün əzizdir, doğmadır. Çünki hər gün biz irəli gedirdik, hər gün. Bir gün də geri addım atmamışıq. Düşmən müharibənin son mərhələsində panikaya, isterikaya qapılaraq öz məğlubiyyətini artıq dərk etməyə başlamışdı. Bir daha gördü ki, Azərbaycan qarşısında onlar duruş gətirə bilməyəcəklər".

Təəssüf ki, Vətən müharibəsində rüsvayçı məğlubiyyətlə üzləşən Ermənistan ötən aylar ərzində də faşist əməllərindən əl çəkmir, ardıcıl şəkildə təxribatlar törədir, Azərbaycanla sərhəd zolağında gərginliklər yaşadır, sərhədlərin delimitasiya və demarkasiyası prosesini pozmağa çalışır.

Ermənistanın bugünkü vəziyyəti də acınacaqlıdır. Düşmən ölkədə hakimiyyətsizlik hökm sürür, seçkiqabağı gərginlik müşahidə edilir. Bundan yararlanmağa çalışan düşmən təxribatları davam etdirəcəyi halda yenidən Azərbaycanın "dəmir yumruğ"unun işə düşə biləcəyini təəssüf ki, anlamır.

Prezident İlham Əliyev Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə ötən illər ərzində Ermənistanın işğalçılıq siyasəti yürüdərək, böyük səhvə yol verdiyini, torpaqlarımızın işğaldan azad edilməsinin Azərbaycan xalqı üçün ümummilli məsələ olduğunu vurğulayıb. Ölkə rəhbəri daha sonra deyib: "İkinci Qarabağ müharibəsi bir daha Azərbaycan xalqının əzmini, iradəsini göstərdi, bütün dünyaya göstərdi və bu şanlı Qələbə tarixdə əbədi qalacaqdır. Bundan sonra Azərbaycan dövləti qalib dövlət kimi inkişaf edəcək. Azərbaycan xalqı müzəffər xalq kimi yaşayacaq, qürur hissi ilə yaşayacaq. Ermənistan isə məğlub edilmiş dövlətdir və bizim işğal altında olan torpaqlarda törədilmiş vəhşilik o erməni lobbi təşkilatlarının öz xalqı haqqında yaratdıqları mifologiyaya da son qoydu. Çünki bu dağıntıları törədən vəhşidir. Bunun başqa adı yoxdur…"

Bu gün işğaldan azad olunmuş ərazilərin vəziyyəti erməni vandalizmin sübutudur. Düşməndən təmizlənən şəhər və kəndlər tamamilə dağıdılmış vəziyyətdədir. Həmin dağıntılar Birinci Qarabağ müharibəsindən sonrakı dönəmdə törədilib. Əvvəlcə evlərin və sosial obyektlərin tikinti materialları, dam örtükləri və pəncərələri oğurlanıb, daha sonra isə işğal altındakı torpaqlarda Azərbaycanın mədəni irsi dağıdılıb, təbii sərvətləri talan olunub.

Ermənistan Azərbaycan torpaqlarını ələ keçirməklə, şəhər və kəndlərimizi xaraba qoymaqla, maddi-mədəni, təbii sərvətlərimizi talan etməklə heç nəyə nail ola bilmədi. Dövlətimizin başçısının vurğuladığı kimi, rəsmi İrəvanın işğalçı siyasəti Ermənistanı tənəzzülə apardı. Demək olar ki, 30 il çəkən işğal faktı səbəbindən Azərbaycan ərazilərinin azad olunmayana qədər Ermənistanla əməkdaşlıq etməyəcək kimi öz mövqeyini birmənalı şəkildə bəyan etdi.

Ermənistan hazırda böyük səhvə yol verdiyini anlayır. Lakin artıq gecdir. Bu səhvin buraxılmasından 30 illik bir zaman keçir. Bu müddətdə Ermənistanın yürütdüyü işğalçılıq siyasəti, Vətən müharibəsindəki acı məğlubiyyəti düşmən ölkəni dərin böhranla üzləşdirib. Hazırda Ermənistanın vəziyyəti müstəqilliyinin ilk illərindəkindən də ağırdır. Bu gün Ermənistanın ordusu belə yoxdur. Sosial-iqtisadi şəraiti gündən-günə pisləşir. Ölkə altı aydan çoxdur ki, siyasi böhran keçirir. Erməni cəmiyyəti vətəndaş müharibəsi təhlükəsini yaşayır. Bütün bu acınacaqlı durumun kökündə işğalçılıq siyasəti dayanır.

"Dağlıq Qarabağ münaqişəsi" ifadəsi artıq tarixə qovuşub. Bu, ilk növbədə, Azərbaycan tərəfindən, sonra isə ötən ilin 10 noyabr tarixli birgə Bəyanat ilə artıq həllini tapıb.

Bu gün işğaldan azad olunmuş ərazilərdə quruculuq işləri intensiv şəkildə aparılır. Azərbaycan çox mühüm təkliflərlə və təşəbbüslərlə çıxış edir və bu, xüsusən də, kommunikasiyaların və yeni daşıma dəhlizlərinin açılması ilə bağlıdır. Layihənin həyata keçirilməsi ilə bağlı iş artıq başlayıb. Azərbaycan bu məqsədlə texniki və maliyyə imkanlarını ayırıb.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***